## "OLAYLAR" qəzetinin baş redaktoru cənab Yunus Oğuza



**Hörmətli Yunus bəy!**

**"OLAYLAR"** qəzetinin və **"OLAYLAR"** İnformasiya Agentliyinin 10 illik yubileyi münasibəti ilə sizi və kollektivinizi səmimi qəlbdən təbrik edirəm.

Ölkənin bu qəzet bolluğunda hər mətbu orqan uzun müddət ayaqda qalıb iqtisadi çətinliklərə, informasiya operativliyinə tab gətirə bilmir və sıradan çıxır. **"OLAYLAR"** qəzeti isə yarandığı ilk gündən hadisələrə obyektiv yanaşma istəyi, informasiyaların səhihliyinə cəhd etməsi və qəzetçilik prinsiplərinə sadiq qalması ilə oxucuların diqqətini çəkdi. Təsadüfi deyil ki, **"OLAYLAR"** qəzeti və eyniadlı informasiya agentliyi bir neçə dəfə həm ölkə daxilində, həm də xaricdə beynəlxalq səviyyədə mükafatlara layiq görülüb. Bu, sizin və kollektivinizin ağır zəhməti, çalışqanlığı, tərəfsizliyi sayəsində nail olduğunuz halal haqqınız, qiymətinizdir.

Hörmətli Yunus bəy!

Bir daha qəzetinizin yubileyi münasibəti ilə sizi və əməkdaşlarınızı ürəkdən təbrik edir, **"OLAYLAR"**a uzun və şərəfli mətbu ömrü arzulayıram. İnanıram ki, kollektiviniz bundan sonra da öz araşdırmaları, obyektivliyi və operativliyi ilə **"OLAYLAR"** qəzetinin daha da inkişaf etməsinə nail olacaq.

**Xoş arzularla Sabir Rüstəmxanlı VHP sədri, millət vəkili**